# Birlik və həmrəylik – zirvəyə aparan yoldur

Qədim zamanlarda ata-babalarımızdan bizə miras qalan kəlamlar, hər an özünü doğruldur: “tək əldən səs çıxmaz”, “güc birlikdədir”, “birlik harda, dirillik də ordadır”...

Həqiqətən də, inci sözlərdir. Birləşib, həmrəy olub, zirvəyə yüksəlib, orada daimi məskən salmaq olur. Tarixi hadisələr, faktlar bunları sübut edir. XIX əsrin tarixi hadisələrini nəzərdən keçirək. Xanlıqlar arasında birliyin olmaması tarixi faciəyələrlə nəticələndi: 1813, 1828-ci illərdə vahid Azərbaycanın iki yerə parçalanmasına gətirib çıxardı.

Zaman keçdi.... 1990, 1991, 1992-ci illərdə Azərbaycanım faciələr yaşadı. 1991-ci ildə dövlət müstəqilliyin bərpasından sonra siyasi, iqtisadi, sosial və digər sahələrdə ciddi problemlərlə qarşılaşan Azərbaycanda, sözün əsl mənasında xaos və anarxiya hökm sürürdü. Bu fonda ağır blokada şəraitində yaşayan, erməni təcavüzü ilə üz-üzə qalan, paytaxtdan ayrı düşmüş Naxçıvan Muxtar Respublikasında vəziyyət daha gərgin idi. Lakin ümummilli liderimiz Heydər Əliyevin Naxçıvana gəlişi, erməni təcavüzü ilə üz-üzə dayanan bu qədim Azərbaycan yurdunun xilasına ümid yaratdı. Xalqımız Ulu öndərimizin idarəçiliyi və siyasi zəkası sayəsində ayağa durdu və bütün çətinliklərə sinə gərdi. Həmin vaxt Azərbaycanı bu cür agır çətinliklərdən bir yolla çıxarmaq olardı və Ulu öndər bunun üçün milli birliyə nail olunmasının zəruriliyini bildirdi.

Soydaşlarımızın milli maraqlar ətrafında birləşməsi, Azərbaycanın bu mürəkkəb vəziyyətdən çıxmasında mühüm rol oynadı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvan Ali Məclisinin 16 dekabr 1991-ci il tarixli iclasında dünya azərbaycanlılarına üz tutaraq, onları birliyə, həmrəyliyə səslədi. Ümummilli liderin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi hər il dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi elan etdi və bu gün tarixə düşdü.

Qəbul olunan qərar bütün soydaşlarımızın vahid mərkəz ətrafında toplanmasına, bütün azərbaycanlıların Vətəni olan Azərbaycan dövlətinin gələcək inkişafında yaxından iştirak etməsinə səbəb oldu. Bütün bunlar tarixi hadisə kimi xarakterizə olunmalıdır. Onu da qeyd edək ki, Heydər Əliyevin iradəsi nəticəsində qəbul olunan bu qərar müasir Azərbaycan dövlətinin inkişafında, Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılmasında və təbliğində mühüm rol oynadı.

Azərbaycançılıq ideologiyası – bizi birləşdirən misilsiz dəyərdir!

Dünya azərbaycanlılarının həmrəyliyini təmin edən mühüm vasitə və mexanizmlərdən biri də milli ideologiyadır. Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası özündə ümümbəşər səciyyə daşıyan və milli dəyərlərə cavab verən prinsipləri ehtiva etməklə, milli həmrəyliyi təmin

edən milli-mənəvi mexanizm səciyyəsi daşıyır. Azərbaycançılıq təkcə bu dövlətin ərazisində yaşayan şəxslər deyil, eyni zamanda bütün dünya azərbaycanlılarını əhatə edərək, onların milli qürür mənbəyinə çevrilib.

Bütün azərbaycanlılar fəxr edirlər ki, dünya siyasətçiləri sırasında ulu öndərimiz Heydər Əliyevin də adı çəkilir. Onun yaratdığı, memarı olduğu Azərbaycan yaşayır və inkişaf edir, modernləşir. İllər keçəcək və gələcəkdə çox-çox nəsillər bu təcrübədən bəhrələnəcəklər.

Bir sözlə, ulu öndər Heydər Əliyev əsasını qoyduğu siyasət Prezident İlham Əliyevin aktual çağırışlara cavab olan uğurlu birlik və həmrəylik siyasətinin qanunauyğun nəticəsidir. Milli həmrəyliyin təminatı və qorunması, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması, onların təşkilatlanması, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırılması işində əhəmiyyətli işlər görüb, nailiyyətlər əldə edilib.

Azərbaycan mədəniyyətinin geniş təbliğində Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Fond xarici ölkələrdəki fəaliyyətini üç əsas istiqamət üzrə qurur: humanitar lahiyələrin həyata keçirilməsi, Azərbaycan mədəniyyətinin təbliğinə həsr olunan tədbirlərin təşkili və Azərbaycan torpaqlarının işğalı ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması. Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fond tərəfindən keçirilən tədbirlərin əhəmiyyəti və miqyası Azərbaycanın dünyada təbliğində, dünya azərbaycanlılarının vahid məfkurə ətrafında birləşməsində çox mühüm yer tutur. Hər il dekabrın sonunda Mehriban Əliyeva Səhiyyə Nazirliyinin Psixo-Nevroloji Baş Mərkəzində müalicə olunan xəstə uşaqlarla görüşür, onlarla birgə bayram keçirir, uşaqları bayram sovqatları ilə sevindirir. Azərbaycanda müasir tələblərə uyğun məktəb, bağçaların inşası, təmir olunması məhz onun sayəsində həyata keçirilir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə keçirilən Dünya Azərbaycanlılarının II və III qurultayları diaspora hərəkatında, milli birlik və həmrəyliyin daha da möhkəmləndirilməsi işində yeni mərhələ açdı. Dünya Azərbaycanlıların III Qurultayında çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirdi: “İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini qoruyub saxlasın. Qüdrətli Azərbaycan dövləti Azərbaycan xalqının, hər bir azərbaycanlının qürur mənbəyidir!”



Danılmaz faktdır ki, Dünya Azərbaycanlılarının qurultayları milli birliyin gücləndirilməsinə mühüm töhfələr verir.

Bütün Azərbaycan xalqının nümayəndələri, dünyanın hansı yerində yaşayırsa yaşasın, bir amal uğrunda birləşməli, həmrəy olmalıdırlar.

Qoy zirvəyə gedən yolda birlik, həmrəylik zəfər çalsın!

***Həmrəylik zirvə olsun,***

***Xalq da zirvədə olsun!***

***Orada məskən salsın!***

Azərbaycançılıq, həmrəylik, milli birlik ideologiyası bizi birləşdirən meyar olmalıdır.

***Dalğalanır səmada üçrəngli bayrağımız,***

***Müdrik, ali insanlar olubdur dayağımız!***

***Şəfqət, mərhəmət, qayğı, nəsiblik – bayrağımız,***

***Milli birlik olacaq hər zaman amalımız.***

***Hər yerdə zəfər çalsın dostluq və birliyimiz.***

***Bu böyük zəfərlərə sevinsin millətimiz!***

Qüdrətli Vətənimiz bizim qürur mənbəyimizdir.

***Sevinc Ağa Xəlilqızı (Basqallı),***

***yazıçı-publisist***